Azərbaycan Respublikasının Dövlət Dəniz
Administrasiyasının Kollegiyasının
04 aprel 2013-cü il tarixli Q/02 nömrəli
Qərarı ilə təsdiq edilmişdir

4 nömrəli əlavə

**Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququ haqqında şəhadətnamənin verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə**

# İNZİBATİ REQLAMENT

## 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:** Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququ haqqında şəhadətnamənin verilməsi üçün müraciətin və sənədlərin qəbulu.

**1.2. Elektron xidmətin məzmunu:** Bu xidmət, Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin, eləcə də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 iyun 2010-cu il tarixli, 105 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında gəmilərin dövlət qeydiyyatına alınması Qaydaları"nın tələblərinə uyğun olaraq hüquqi və fiziki şəxslərə məxsus gəmiyə Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququ haqqında şəhadətnamənin verilməsi üçün müraciətin və sənədlərin elektron formada qəbulunu nəzərdə tutur .

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:**

- Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin 6-1.1.1-ci, 6-1.1.2-ci, 8.1-ci, 9-cu, 18.1.1-ci və 22-ci maddələri;
- "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli, 429 nömrəli Fərmanının 2-ci və 2-1-ci hissələri;
- "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısının" təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli Qərarında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli qərarı ilə təsdiq edilmiş "Elektron xidmət növlərinin Siyahısı"nın 39.4-cü bəndi;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 iyun 2010-cu il tarixli, 105 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında gəmilərin dövlət qeydiyyatına alınması Qaydaları"nın 2.9-cu bəndi.

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası (bundan sonra Administrasiya).

**1.5. Elektron xidmətin digər icraçıları:** Yoxdur.

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** Qismən avtomatlaşdırılmışdır.

**1.7. Elektron xidmətin icra müddəti:** 5 (beş) iş günü.

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:** Gəmiyə "Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququ haqqında Şəhadətnamə"nin verilməsi.

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1. Elektron xidmətin növü:** İnteraktiv.

**2.2. Elektron xidmət üzrə ödəniş:** Ödənişli.

**2.2.1**. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 28.1-ci və 28.2-ci maddələrinə uyğun olaraq, "Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququ haqqında Şəhadətnamə"nin verilməsi üçün dövlət rüsumunun məbləği 50 (əlli) manat müəyyən edilmişdir.

Ödəmə üsulları: nağd, elektron ödəmə sistemləri, o cümlədən internet vasitəsilə və köçürmə.

"Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququ haqqında Şəhadətnamə"nin verilməsinə görə dövlət rüsumunun ödənilməsi üçün hesab:

Benifisiar (alan) bank

| | |
|---|---|
| Adı: | Dövlət Xəzinədarlıq Agentliyi |
| Kodu: | 210005 |
| VÖEN: | 1401555071 |
| m/h: | 0132030003944 |
| S.W.I.F.T. Bik: | CTREAZ 22 |
| Alan müştəri | |
| Adı: | Bakı şəhəri Vergilər Departamenti |
| Hesab № | AZ17CTRE00000000000002117131 |
| VÖEN: | 1400305751 |
| Köçürülən məbləğ: | |
| Rəqəmlə: | 50 (AZN) |
| Yazı ilə: | Əlli manat |

Ödənişin təyinatı: "Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzmək hüququ haqqında Şəhadətnamə"nin verilməsi üçün ödənilən dövlət rüsumu

Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası

VÖEN: 1400872751

Büdcə təsnifatının kodu: 142215

Ödəmə üsulu: Köçürmə

**2.3. Elektron xidmətin istifadəçiləri:** Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri.

**2.4. Elektron xidmətin təqdim olunma yeri:** Elektron xidmət göstərildiyi internet ünvanları:

- http://www.e-gov.az;
- http://www.ardda.gov.az.

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**

- http://www.e-gov.az;
- http://www.ardda.gov.az;
- e-poçt: shipsstandard-department@ardda.gov.az;
- tel: 012 497-44-05 (118).

**2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:**

**Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər aşağıdakılardır:**

1. gəminin mülkiyyətçiləri və ya onun üzərində digər əşya hüquqlarına malik olan şəxslər tərəfindən doldurulmuş ərizə-anket (reqlamentə əlavə olunur);

2. Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi və surəti (müvafiq olaraq Azərbaycan Respublikasının ərazisində əcnəbinin qeydiyyata alınması haqqında vəsiqə və ya Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün vətəndaşlığı olmayan şəxsin şəxsiyyət vəsiqəsi);

3. hüquqi şəxsin dövlət qeydiyyatını təsdiq edən sənədlərin notariat qaydasında təsdiq edilmiş surəti;

4. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada gəmiyə mülkiyyət hüququnu və gəmiyə digər əşya hüquqlarını təsdiq edən müvafiq sənəd və ya məhkəmənin qərarı, habelə qeyd edilən sənədlərin notariat qaydasında təsdiq edilmiş surəti;

5. xarici dövlətlərin dövlət gəmi reyestrindən çıxarılmasını təsdiq edən sənədin əsli və ya apostil edilmiş surəti;

6. gəminin BDT (İMO) nömrəsinin alınmasına dair sənəd;

7. gəmi radiostansiyasının fəaliyyəti üçün xüsusi icazə;

8. çağırış siqnalının alınmasını təsdiq edən sənəd;

9. gəminin istismara yararlı olmasına və dəniz nəqliyyatı sahəsində mövcud beynəlxalq konvensiyaların tələblərinə uyğunluğunun yoxlanılmasına dair akt;

10. ölçü şəhadətnaməsi və notariat qaydasında təsdiq edilmiş surəti;

11. gəminin təsnifat şəhadətnaməsi və notariat qaydasında təsdiq edilmiş surəti;

12. gəminin üzgüçülüyə yararlılığı haqqında şəhadətnamə və notariat qaydasında təsdiq edilmiş surəti;

13. dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd. Ödənişin həyata keçirildiyini təsdiq edən sənəd xidmətin nəticəsinin əldə edilməsi zamanı digər sənədlərin əsli ilə birlikdə bilavasitə Administrasiyaya təqdim edilməlidir.

**Qeydlər:**

1. Müraciət formaları xidmətin təqdim edildiyi internet ünvanından doldurulur və digər sənədlərin skan olunmuş surətləri ilə birlikdə elektron formada göndərilir.

2. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlərin elektron formada surətləri, icranın nəticəsinin əldə edilməsi zamanı isə onların əsli bilavasitə Administrasiyaya təqdim edilməlidir.

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

**3.1. İnteraktiv xidmətlər üçün sorğu:**

**3.1.1. Sorğunun formalaşdırılması:** İstifadəçi inzibati reqlamentin 2.4-cü bəndində göstərilən internet ünvanlara daxil olaraq müəyyənləşdirilmiş avtorizasiya prosesini keçir. Bundan sonra müvafiq xidmət növünü seçir, həmin xidmət növü üzrə açılan müraciət formasını doldurur və elektron imza ilə təsdiq etdikdən sonra bu inzibati reqlamentin 2.6-cı bəndində göstərilən sənədlərin skan olunmuş surətlərini əlavə edərək göndərir.

**3.1.2. Sorğunun qəbulu:** Sorğu inzibati reqlamentin 2.4-cü bəndində göstərilən internet ünvanlara daxil olduğu tarixdə qeydə alınır və bu barədə dərhal istifadəçinin elektron poçt ünvanına bildiriş göndərilir. Sorğunun sonrakı icrası ilə bağlı istifadəçiyə bildiriş göndərilir.

**3.2. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

**3.2.1. Sorğunun yerinə yetirilməsindən imtina halları:** Şəhadətnamənin verilməsi üçün təqdim olunan sənədlərdə çatışmazlıqlar aşkar edildikdə sorğunun yerinə yetirilməsindən imtina edilir və imtinanın səbəbləri göstərilməklə 5 (beş) iş günü müddətində istifadəçinin elektron poçt ünvanına bildiriş göndərilir.

**3.2.2. Sorğunun qəbulu:** İstifadəçi tərəfindən çatışmazlıqlar aradan qaldırıldıqdan və sənədlər təkrar təqdim edildikdən sonra, şəhadətnamənin verilməsi məsələsinə yenidən baxılır və nəticəsi haqqında istifadəçiyə elektron poçtla məlumat verilir.

**3.3. Sorğunun icrası:**

**3.3.1. Ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat:** Sorğu qəbul edildikdən sonra Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"a uyğun olaraq qeydiyyata alınır və məsul şöbəyə icra edilməsi üçün göndərilir.

**3.3.2. Hər bir inzibati əməliyyatın məzmunu, yerinə yetirilmə müddəti və/və ya maksimal yerinə yetirilmə müddəti:** Məsul şöbədə sorğuya və ona əlavə edilən sənədlərə baxılır və təqdim edilmiş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, bu barədə ərizəçinin elektron poçt ünvanına 5 (beş) iş günündən gec olmayaraq bildiriş göndərilir. Onlar aradan qaldırıldıqdan və sənədlər təkrar təqdim edildikdən sonra onlara 5 (beş) iş günü müddətində baxılır və müvafiq qərar qəbul edilir.

**3.3.3. İnzibati əməliyyatda iştirak edən digər dövlət orqanı haqqında məlumat:** Yoxdur.

**3.3.4. Hər bir inzibati prosedurun nəticəsi və onun verilməsi qaydası:** Çatışmazlıqlar və ya imtina üçün əsas olmadıqda, 5 (beş) iş günündən gec olmayaraq şəhadətnamənin verilməsi haqqında qərar qəbul edilir. Şəhadətnamənin verilməsindən imtina edilmədikdə, ərizəçi şəhadətnamənin verilməsinə görə dövlət rüsumunun ödənildiyini təsdiq edən sənəd təqdim edir. Bundan sonra şəhadətnamənin blankı rəsmiləşdirilərək istifadəçiyə birbaşa təqdim olunur.

**3.4. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:** Xidmətin yerinə yetirilməsinə nəzarəti Administrasiyanın Hüquq, kadr və beynəlxalq əlaqələr şöbəsi həyata keçirir.

**3.4.1. Nəzarət forması:** kargüzarlıq.

**3.4.2. Nəzarət qaydası:** Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, idarə, təşkilat və müəssisələrində kargüzarlığın aparılmasına dair Təlimat"la müəyyən edilmiş qaydada.

**3.5. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:**

**3.5.1. İstifadəçinin şikayət etmək hüququ haqqında məlumat:** İstifadəçi göstərilən elektron xidmətlə bağlı onu razı salmayan istənilən məsələ barədə inzibati qaydada və məhkəməyə şikayət edə bilər.

**3.5.2. Şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya:** Şikayət kağız üzərində və ya elektron qaydada tərtib olunur. Kağız üzərində şikayət Administrasiyanın poçt ünvanına, elektron şikayət isə inzibati reqlamentin 2.5-ci bəndində göstərilən e-poçt ünvanına göndərilir. Şikayət ərizəsi "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinə uyğun olmalıdır.

**3.5.3. Şikayətin baxılma müddəti:** Şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 78.1-ci maddəsində müəyyən olunmuş müddətdə baxılır.

**3.5.4.** Məhkəməyə verilən şikayətə Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır.

"Azərbaycan Respublikasında gəmilərin dövlət qeydiyyatına alınması Qaydaları"na

**6 nömrəli əlavə**

**AZƏRBAYCAN RESPUBLİKASININ**

**DÖVLƏT DƏNİZ ADMİNİSTRASİYASI**

**Azərbaycan Respublikasının Dövlət gəmi reyestrində gəminin qeydiyyata alınmasına dair**

# ƏRİZƏ-ANKET

<table>
<tr><td rowspan="8">1.</td><td rowspan="8">Gəminin inşa edildiyi vaxtdan daşıdığı adlar</td><td>Adı</td><td>Verildiyi tarix</td><td>Dəyişdirildiyi tarix</td></tr>
<tr><td></td><td></td><td></td></tr>
<tr><td></td><td></td><td></td></tr>
<tr><td></td><td></td><td></td></tr>
<tr><td></td><td></td><td></td></tr>
<tr><td></td><td></td><td></td></tr>
<tr><td></td><td></td><td></td></tr>
<tr><td></td><td></td><td></td></tr>
<tr><td>2.</td><td>Verilməsi istənilən yeni ad</td><td colspan="3"></td></tr>
<tr><td rowspan="7">3.</td><td rowspan="7">Gəminin inşa edildiyi vaxtdan qeydiyyatda olduğu limanlar</td><td>Limanlar</td><td>Qeydiyyata alınma tarixi</td><td>Qeydiyyatdan çıxarılma tarixi</td></tr>
<tr><td></td><td></td><td></td></tr>
<tr><td></td><td></td><td></td></tr>
<tr><td></td><td></td><td></td></tr>
<tr><td></td><td></td><td></td></tr>
<tr><td></td><td></td><td></td></tr>
<tr><td></td><td></td><td></td></tr>
<tr><td>4.</td><td>Hal-hazırda qeydiyyata alınması istənilən liman</td><td colspan="3"></td></tr>
<tr><td>5.</td><td colspan="4">Gəminin BDT nömrəsi______________ verilmə tarixi _____________________</td></tr>
<tr><td>6.</td><td colspan="4">Gəminin beynəlxalq çağırış siqnalı____________________ verilmə tarixi_________________</td></tr>
<tr><td>7.</td><td colspan="4">Gəminin üzmə rayonu</td></tr>
<tr><td>8.</td><td colspan="4">Gəminin təsnifat cəmiyyəti haqqında məlumat</td></tr>
<tr><td>8.1.</td><td>Adı</td><td colspan="3"></td></tr>
<tr><td>8.2.</td><td>Kodu</td><td colspan="3"></td></tr>
<tr><td>8.3.</td><td>Qeydiyyat nömrəsi</td><td colspan="3"></td></tr>
<tr><td>8.4.</td><td>Təsnifat nişanının işarəsi</td><td colspan="3"></td></tr>
<tr><td>8.5.</td><td>Təsnifat şəhadətnaməsi</td><td>verilmə tarixi</td><td colspan="2">etibarlılıq tarixi</td></tr>
<tr><td rowspan="4">9.</td><td rowspan="4">Gəminin ölçüləri</td><td>tam uzunluğu</td><td></td><td>metr</td></tr>
<tr><td>perpendikulyarlararası uzunluğu</td><td></td><td>metr</td></tr>
<tr><td>eni</td><td></td><td>metr</td></tr>
<tr><td>bortun hündürlüyü</td><td></td><td>metr</td></tr>
<tr><td>10.</td><td>Gəminin</td><td>ümumi tutumu</td><td></td><td>ton</td></tr>
</table>

| | | | | |
|---|---|---|---|---|
| | | xalis tutumu | | ton |
| | | dedveyti | | ton |

| | | | | | |
|---|---|---|---|---|---|
| **11.** | Gəminin yük nişanına görə suya oturumu | | | | |
| | Yay | | | Qış | |
| **11.1.** | Boş | | metr | | metr |
| **11.2.** | Yüksüz | | metr | | metr |
| **11.3.** | Ballastda | | metr | | metr |
| **11.4.** | Yüklü | | metr | | metr |
| **12.** | Gəminin şirin suya nəzərən suya oturumu ____________________metr | | | | |

| | | |
|---|---|---|
| **13.** | Gəminin inşasına dair məlumatlar | |
| **13.1.** | Kilin qoyulma tarixi | |
| **13.2.** | İnşa (istismara verilmə) tarixi | |
| **13.3.** | İnşa nömrəsi | |
| **13.4.** | İnşa təsnifat nişanı | |
| **13.5.** | İnşa edən tərsanənin adı | |
| **13.6.** | İnşa edən müəssisənin adı | |
| **13.7.** | Ölkə / Şəhər | |
| **14.** | Gövdənin materialı | polad<br>alüminium □<br>plastik □<br>digər □ ___________________<br>(göstərin) |

| | | | |
|---|---|---|---|
| **15.** | Gəmi göyərtələrinin sayı və adları | 1. | |
| | | 2. | |
| | | 3. | |
| | | 4. | |
| | | 5. | |
| **16.** | Gəminin baş mühərriki(ləri) haqqında məlumat | sayı və gücü | |
| | | markası | |
| | | nömrəsi | |
| | | istehsal tarixi | |
| | | istehsalçı | |
| | | dirsəkli val sayı | |
| | | növü | dizel x<br>buxar □<br>digər □______________ |
| **17.** | Pər növü | adi x<br>addımı nizamlayan pər □ | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | digər ◻__________ | | | | | |
| **18.** | Gəminin sürətinə dair məlumatlar | yüklü halda | | | | | uzel |
| | | ballastda | | | | | |
| **19.** | Gəminin tanklarının ümumi həcmi | yanacaq tankı _____ $m^3$ | içməli su tankı ____ $m^3$ | sürtgü yağı tankı _____ $m^3$ | çirkab su tankı ____$m^3$ | digər tanklar ___$m^3$ | |
| **20.** | Gəminin yük anbarları (tankları) haqqında məlumatlar | | | | | | |
| **20.1.** | Gəmidə yük anbarlarının (tankların) sayı | ____________ədəd | | | | | |
| **20.2.** | Anbarların (tankların) həcmi | ____________ | | | | | |
| **21.** | Gəminin yükqaldırıcı avadanlıqları haqqında məlumatlar | | | | | | |
| | markası _______________________________ | növü ________________________________ | | | | | |
| | təhlükəsiz yükqaldırma çəkisi ___________ton | təhlükəsiz yükqaldırma həddi _______________ metr | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| **22.** | Gəminin sərnişin tutumuna dair məlumatlar | | | | |
| **22.1.** | sərnişin salonlarının sayı | ədəd | | | |
| **22.2.** | sərnişin salonlarının sərnişin tutumu | nəfər | | | |
| **22.3.** | sərnişin kayutlarının sayı | ədəd | | | |
| **22.4.** | sərnişin kayutlarının ümumi sərnişin tutumu | nəfər | | | |
| **23.** | Gəminin yelkən qurğusu haqqında məlumat | | | | |
| | markası ____________________________________ | növü ________________________________________ | | | |
| **24.** | Gəminin dor ağaclarının sayı və adları haqqında məlumatlar | 1. Fok ◻<br>2. Qrot ◻<br>3. Bezan ◻ | | | |
| **25.** | Gəminin radiorabitə avadanlıqları haqqında məlumatlar | əsas avadanlığın markası | | | |
| | | əsas avadanlığın nömrəsi | | | |
| | | üzmə rayonu | A 1 ◻<br>A 3 ◻ | A 2 ◻<br>A 4 ◻ | |
| **26.** | Gəminin xilasedici avadanlıqları haqqında məlumatlar | | | | |
| **26.1.** | salların ümumi sayı | ədəd | | | |
| **26.2.** | salların ümumi tutumu | nəfər | | | |
| **26.3.** | xilasedici qayıqlar | sayı | ədəd | | |
| | | tutumu | nəfər | | |
| | | mühərrikin markası və gücü | | | |
| **27.** | Gəminin sükan qurğusu haqqında məlumatlar | sükan qurğusunun markası | | | |
| | | elektrik motoru ◻_____ ədəd<br>hidravlik motoru ◻____ ədəd<br>mexaniki sistem ◻_____ ədəd<br>digər_____________ | | | |
| **28.** | Gəminin lövbər qurğusu haqqında məlumatlar | elektrik motoru ◻_____ ədəd<br>hidravlik motoru ◻_____ ədəd<br>digər____________ | | | |
| | | ______ | | | |
| | | uzunluğu ___metr | | | |

| | | |
|---|---|---|
| | | zəncirinin çapı _____mm |
| **29.** | Gəminin sukeçirməyən yanğın əleyhinə qapılarının sayı | |
| **30.** | Yanğınsöndürmə nasosunun sayı və gücü | |

| **31.** | Gəmi şəhadətnamələri | Verilmə tarixi | Etibarlılıq müddəti |
|---|---|---|---|
| **31.1.** | Dövlət bayrağı altında üzmək hüququ haqqında şəhadətnamə (əvvəlki) | | |
| **31.2.** | Gəmiyə mülkiyyət hüququ haqqında şəhadətnamə | | |
| **31.3.** | Gəminin üzgüçülüyə yararlılığı haqqında şəhadətnamə | | |
| **31.4.** | Sərnişin şəhadətnaməsi (sərnişin gəmisi üçün) | | |
| **31.5.** | Ölçü şəhadətnaməsi | | |
| **31.6.** | Yük çeşidi haqqında şəhadətnamə | | |
| **31.7.** | Gəmi heyətinin minimal tərkibi haqqında şəhadətnamə | | |
| **31.8.** | Neftlə çirkləndirmənin qarşısının alınması haqqında şəhadətnamə | | |
| **31.9.** | Çirkab sularla çirkləndirmənin qarşısının alınması haqqında şəhadətnamə | | |
| **31.10.** | Zibillə çirkləndirmənin qarşısının alınması haqqında şəhadətnamə | | |

| | | | | |
|---|---|---|---|---|
| **32.** | Gəminin mülkiyyətçisi haqqında məlumat<br>Hüquqi şəxs □<br>Fiziki şəxs □<br>Digər □___________<br>fiziki şəxs olduqda onun şəxsiyyətini təsdiq edən sənədin nömrəsi | | | |
| **32.1.** | Adı | | | |
| **32.2.** | Ünvanı | | telefon | |
| | | | mobil | |
| | | | faks | |
| | | | e-mail ünvanı | |
| **32.3.** | Mülkiyyət növü | | | |
| **32.4.** | Mülkiyyət hüququnu təsdiq edən sənədə dair məlumat | | | |
| **32.5.** | Mülkiyyətçinin BDT nömrəsi | № | | |
| | | alınma tarixi | | |
| **32.6.** | Respublika ərazisində qeydiyyat | tarixi | | |
| | | nömrəsi | | |

| | | | | |
|---|---|---|---|---|
| **33.** | Gəmi sahibi haqqında məlumat<br>Hüquqi şəxs □<br>Fiziki şəxs □<br>Digər □___________<br>fiziki şəxs olduqda onun şəxsiyyətini təsdiq edən sənədin nömrəsi | | | |
| **33.1.** | Adı | | | |
| **33.2.** | Ünvanı | | telefon | |
| | | | mobil | |
| | | | faks | |
| | | | e-mail ünvanı | |
| **33.3.** | Mülkiyyət növü | | | |
| **33.4.** | Sahibliyi təsdiq edən sənədə dair məlumat | | | |

| | | | |
|---|---|---|---|
| **33.5.** | Sahibkarın BDT nömrəsi | № | |
| | | alınma tarixi | |
| **33.6.** | Respublika ərazisində qeydiyyat | tarixi | |
| | | nömrəsi | |

Bununla təsdiq edilir ki, ərizə-anketdə verilən məlumatlar düzgündür.

Tarix “ ” ___________________ 201 -ci_ il

İmza _________________________________ Möhür yeri